MİRZƏ ƏLƏKBƏR
SABİR

HOP-HOP NAMƏ

MİRZƏ ƏLƏKBƏR
SABİR

HOP-HOP NAMƏ

Rəssamı:

NƏCƏFQULU

80507.079

BAKI Sharq-Garb 1992

* * *

Millət necə tarac olur olsun, nə işim var?!
Düşmənlərə möhtac olur olsun, nə işim var?!
Qoy mən tox olum, özgələr ilə nədi karim,
Dünyavü cahan ac olur olsun, nə işim var!
Səs salma, yatanlar ayılar, qoy hələ yatsın,
Yatmışları razı deyiləm kimsə oyatsın,
Tək-tək ayılan varsa da, haq dadına çatsın,
Mən salim olum, cümlə cahan batsa da batsın.

Millət necə tarac olur olsun, nə işim var?!
Düşmənlərə möhtac olur olsun, nə işim var?!

Salma yadıma söhbəti-tarixi-cahani,
Əyyami - sələfdən demə söz bir də, filani,
Hal isə gətir meyl eləyim dolmanı, nani,
Müstəqbəli görmək nə gərək, ömrdü fani;

Millət necə tarac olur olsun, nə işim var?!
Düşmənlərə möhtac olur olsun, nə işim var?!

Övladi - vətən qoy hələ avarə dolansın,
Çirkabi-səfalətlə əli, başı bulansın,
Dul övrət isə sailə olsun, oda yansın,
Ancaq mənim avazeyi - şə'nim ucalansın;

Millət necə tarac olur olsun, nə işim var?!
Düşmənlərə möhtac olur olsun, nə işim var?!

Hər millət edir səfheyi - dünyada tərəqqi,
Eylər hərə bir mənzili mə'vada tərəqqi,
Yorğan - döşəyimdə düşə gər yada tərəqqi,
Biz də edərik aləmi - rö'yada tərəqqi;
Millət necə tarac olur olsun, nə işim var?!
Düşmənlərə möhtac olur olsun, nə işim var?!

TƏK SƏBİR

Ta gəlirik biz də bir az anlayaq,
Məhzəri-irfanda vurur tək səbir.
Ya deyirik işləri sahmanlayaq,
Məclisi-ə'yanda vurur tək səbir.
İstəyirik bir iş açaq filməsəl,
Söyləşirik bir-iki il laəqəl,
Ta deyilir pul verin aşsın əməl,

Ölkədə, hər yanda vurur tək səbir.

Yalxı bizi eyləməyib mübtəla:
Səfheyi-Qafqazı tutub bu bəla,
Qaxda, Qazaxda, Şəkidə bərmələ,

Şişədə, Şirvanda vurur tək səbir.

Lakin o yerlərdə gedir, durmayır,
Bir elə layiqli kələk qurmayır.
Gəncədə derlərsə vurur, vurmayır,

Eylə ki, Səlyanda vurur tək səbir.

Andıra qalmış nə yaman səslənir!
Söz deməyə vermir aman, səslənir!
Ox atılır sanki kaman səslənir!

Sahəti meydanda vurur tək səbir!

Hərzə nə şura və nə məclis bilir,
Nə düşünür yaxşı, nə bir pis bilir,
Qorxmur, utanmır, nə də bir hiss bilir,

Hücrədə, dükanda vurur tək səbir.

SUAL-CAVAB

– Şəhri-mə'lumunuzun vəz'ü qə'rari necədir?
– Həmdülillah, necə görmüşdüsə Nuh, öyləcədir!.
– Yeni məktəb açılıbmı vətən övladı üçün?
– Az deyil, Adəm açan mədrəsə əhfadı üçün!
– Oxuyurmu qəzetə şəhrinizin əhli tamam?
– Bə'zi sarsaq oxumuşlar oxuyur, mən oxumam!
– Ölkənizdə açılıbdırmı qiraətxanə?
– Tazələr açmış idi, qoyduq onu viranə!
– Ac qarındaşlara infaq edilirmi, əmu can?
– Onu görməzmi xuda, el niyə versin ona nan!?
– Bivə övrətlərin əmri alınırmı nəzərə?
– Canı çıxsın, o da getsin yenə bir tazə ərə!
– İttihad əmrinə dair danışırsızmı barı?
– Danışır bir paramız, leyk boğazdan yuxarı.
– Sünniyü şiə təəssübləri ləğv oldumu ya?
– Nə dedin? Küfr danışdın! Cıraram ağzını ha!
– Qabili-ərz sözüm yox, məni əhv et, gedirəm...
– Bəcəhənnəm ki, gedirsən, səni xud mən nedirəm?!
Buna bax, ağzına bax, surəti-idbarına bax!
Başının şapkasına, etdiyi göftarına bax!

BAKI PƏHLİVANLARINA

Gönlüm bulanır kuçədə cövlanını görcək,
Nitqim tutulur hərzəvü hədyanını görcək.

Canım üzülür əldəki qalxanına baxcaq,
Qəlbim alışır beldəki patranını görcək.

Baxdıqca revolverinə əndamım olur süst,
Bağrım yarılır xəncəri-bürranını görcək.

Təfriq eləmam: məstmi, hüşyarmısan sən,
Məstanərəviş, məşyi - pərişanını görcək.

Düşdün lotuluq məşqinə, islamə uyuşma
Öldür nərədə olsa musəlmanını görcək.

Qoy börkünü kəc qaşının üstündə, fırılda
Kəndin kimi bir lotiyi - meydanını görcək.

Məst ol gecə-gündüz, nə bilim, yat nərələrdə,
Yum gözlərini xanəyi-viranını görcək.

Əmrədlər ilə keyfini çək bağda, çəmənda,
Bir baxma da ətfali-ciyərqanını görcək.

Gah «iskoroxod» çəkmə, gahi gey «lakoronni»,
Vellən gecə-gündüzdə xuramanını görcək.

Var-yoxunu sərf eylə barişnalara, ancaq
Söy həmsəri-məzlumeyi-nalanını görcək.

Gül, gül ki cavansan,
Əyyaşı-cahansan,
Sərxoşlara cansan,
Hala güləcəkcən
Vəqta ki, qocaldın,
Rişi döşə saldın,
Pis günlərə qaldın
Onda biləcəksən!..



* * *

A kişi, bundan əzəl xalqda hörmət var idi,
Binəva mollalara hörmətü izzət var idi.

Ağa hər yana ki, anqır desə, xalq anqırırdı,
Yer üzündə bərəkət, ne'mətü dövlət var idi.

Kimin ağzıydı ki, mən ağ deyənə qara desin?
Hər nəyə əmr eləsəm xalqda taət var idi.

Hərə öz əmrinə məşqul idi başı aşağı,
Nə bu mollayə sataşmaq nə bu söhbət var idi.

Elm hardaydı, müsəlman harada, qardaşım,
Nə tərəqqi sözü, nə söhbəti millət var idi.

A dönüm başına, bilməm bu cavanlar nə deyir,
Ki əzəl onlara nə qüslü təharət var idi.

Hamısı kafirə bənzər o haramzadələrin,
Nə müsəlmanlığa onlarda şəbahət var idi.

Bu yalan taifəni onlar oyatdı, heyhat!
Keçdi ol dövr ki, mollalara rahət var idi.

Müftəxorluq nə gözəl peşə idi tutmuş idim,
Nə açan üstünü karın, nə şəmatət var idi.

Ziddimə söz deyən olsaydı edərdim təkfir,
İşmi qurdalasın, kimdə nə cür'ət var idi?

İndi bu xırda uşaqlar da edir tə'nə bizə?
Fövt olub getdi o əyyam ki, fürsət var idi.

Ah, əfsus ki, keçdi o gözəl dövranım!
Rahət idim ki, bu xalq içrə cəhalət var idi!

QOYMA GƏLDİ

Xandostu, amandı, qoyma, gəldi!
Didari yamandı, qoyma, gəldi!

Vay, vay! Deyəsən bəşər deyil bu!
Bir şəklə uyan təhər deyil bu!
Allahı sevərsən, ər deyil bu!

Ərdodu, qabandı, qoyma, gəldi!
Didari yamandı, qoyma, gəldi!

Ol gün ki, adaxladız, utandım,
Oğlandı, dediz, ərin, inandım,
Ər boylə olurmuş, indi qandım!...

Xandostu, amandı, qoyma, gəldi!
Kirdari yamandı, qoyma gəldi!

Qorxdum, ay aman, yarıldı bağrım,
Bir nazik ipə sarıldı bağrım,
Gup-gup döyünüb darıldı bağrım,

Canım oda yandı, qoyma, gəldi!
Kirdari yamandı, qoyma, gəldi!

Dudkes kimi bir papaq başında,
Ağ tükləri bəllidir qaşında,
Gərçi qocadır - babam yaşında,

Xortdandı, koxandı, qoyma, gəldi!
Girdari yamandı, qoyma, gəldi!

İyrənmişəm ağzının suyundan,
Qətran qoxusu gəlir boyundan,
Lap doğrusu, qorxmuşam xoyundan,

Bir əf'i ilandı, qoyma, gəldi!
Girdari yamandı, qoyma, gəldi!

UŞAQDIR

Ay başı daşdı kişi, dinmə, uşaqdır uşağım!
Nə ədəb vaxtıdı, qoy söysün, ufaqdır uşağım!

Keyfyinə dəymə, söyə ya sənə, ya qardaşına,
Atovun goru üçün, boşda bu tifli başına!
İndicə-indicə ancaq yetir on bir yaşına.

Ağlı kəsmir, hələ bir körpə uşaqdır uşağım!
Nə ədəb vaxtıdı, qoy söysün, ufaqdır uşağım!

Bir söyüşdən ötərü etmə əziyyət balama,
Göyərib coşma, utan, qonşuları yığma dama.
Sənə söydükləri getsin başı batmış atama,

Qışqırıb bağrını da yarma, uşaqdır uşağım!
Nə ədəb vaxtıdı, qoy söysün, ufaqdır uşağım!

Ax, nə yaxşı kişidi, qonşumuz Ağcanın əri,
Oğlu söydükcə fərəhdən açılır balü pəri,
Yoxsa, ay hərzə kişi, bir quru sözdən ötəri,

Darıxırsan, deməyirsən ki, uşaqdır uşağım!
Nə ədəb vaxtıdı, qoy söysün, ufaqdır uşağım!

Kişi, az söylə mənə bir dəxi məktəb sözünü!
Yə'ni məktəblə uşaq kamil edərmiş özünü?
Bir söyüşdən yana az danla bu tifilin üzünü!

Sözü ləzzətli, şirin dilli uşaqdır uşağım!
Nə ədəb vaxtıdı, qoy söysün, ufaqdır uşağım!

Deyilik erməni zaye edək evladımızı,
Oxudaq gözləri açılmamış əhfadımızı,
Görmüşəm elm oxumuş heyvərə damadımızı.

Qoymaram məktəbə, bir qabil uşaqdır uşağım!
Nə ədəb vaxtıdı, qoy söysün, ufaqdır uşağım!

BİR MƏCLİSDƏ ON İKİ KİŞİNİN SÖHBƏTİ

Vəkil
Haqsıza haqlı deyib, bir çox günaha batmışam.

Həkim
Dərdi təşxis etməyib, qövm-əqraba ağlatmışam.

Tacir
Mən həlal ilə haramı bir-birinə qatmışam

Rövzəxan
Ümmətin pulun alıb, mən gözlərin islatmişam.

Dərviş
Nərdə bulsam soq açıq min-min yalan söz atmışam

Sofi
Ruzü şəb haq-haq deyib, mən hər kəsi oynatmışam.

Molla
Gündə bir fitva verib, məxluqu çox aldatmışam

Elm
Qət'i-ümmid etmişəm, yeksər bu qövmü atmışam

Cəhl
Ortada keyf eyləyib, mən həm məramə çatmışam.

Şair
Bülbülə, eşqə, gülə daim yalan fırlatmışam.

Əvam
Anlamam hərgiz cəhalət bəstərində yatmışam.

Qəzetçi
Mən cəridəm dolmaq üçün mətləbi uzatmışam.

205076

GAVUR QIZI

Bilmənm nə çarə eləyim, ay Molla Nəsrəddin?
Çərlətdi lap məni bizim övrət gavur qızı!

On beş, on altı, bəlkə də on yeddi il olur
Vardır mənim evimdə bu külfət gavur qızı.

Üç-dörd uşaq doğub, qocalıb, dişləri düşüb,
Bir kaftara dönübdü bu nikbət, gavur qızı!

İndi nə qədr ona deyirəm, sən qocalmısan,
Çoxdur işin, olur, sənə zəhmət, gavur qızı!

Gəl razı ol ki, bir qız alım, mən də kef çəkim.
Həm eyləsin sənə dəxi xidmət, gavur qızı!

Bundan yana dönüb isə mır-mır mırıldayır,
Qoymur olam evimdə də rahət gavur qızı!

Bir söyləyən yox, ay başı batmış, nə borcuna,
Haqqın nədir salırsan ədavət, gavur qızı!

Sübh oldu dur, inəkləri sağ, calxa nəhrəni,
Divara yax təzək, elə qeyrət, gavur qızı!

Örkən, palaz, çatı toxu, ip tovla, yun dara,
Təndir qala, bişir çörək, aş, ət, gavur qızı!

Sal başını aşağı sən, ancaq işində ol,
Paltar yu, ev süpür, elə xidmət, gavur qızı!

Yoxsa nə borcuna ki, ər övrət alır yenə,
Övrətsən, ancaq, elə itaət, gavur qızı!

Ərdir özü bilər neçə övrət alar, alar
Heyvan kimi durar, baxar övrət, gavur qızı!

* * *

Bə'zi yerlərdə təsadüf olunur aşa, ətə,
Müftə görcək tuturam kəndimi bozbaşa, ətə.

Deyirəm, kaş qonaqlıq olan evlərdə bütün
Yeyib-içməkdə başım bənd ola, çulğaşa, ətə.

O qədər xoşlanıram tüstüsü çıxcaq kababın,
Ac pişik tək cumuram şövq ilə birbaşa ətə.

Görürəm ta əti qəssab dükanında asılıb,
Az qalır it kimi nəfsim hürə, dırnaşa, ətə.

Nuş olur canıma ət, xəsə o həngamədə kim,
Mən yeyəm xırda uşaqlar baxa, ağlaşa, ətə.

Əti çox istəyirəm, leyk pulu ondan çox,
Nola, quzğun kimi ta müftə qonam laşa, ətə.

Xərc edir bir para əşxas pulun bayramda
Zə'fərana, yağa, razyanaya, xaşxaşa, ətə.

Filhəqiqət yeməli şeydir əgər pulsuz ola
Yaranız pul verilə hər quruya, yaşa, ətə.

Pulu ancaq yaraşır çinləyəsən sənduqa,
Nə ki, xərc eyləyəsən millətə, dindaşa, ətə

Oylə zəhləm gedir, Allah da bilir, millətdən
Oluram süst adı gəlcək, dönürəm daşa, ətə.

Adı puldursa pulun, leyk özü can yoniqarıdır,
Vermək olmur qohuma, qonşuya, qardaşa, ətə.

Verərəm dinimi, imanımı, əmma pulumu
Vermərəm, Bəhlul ağa, arxayın ol, aşa, ətə

QOCALIQDAN ŞİKAYƏT

Əfsus, qocaldım, ağacım düşdü əlimdən,
Səd heyf, cavanlıq!
Zə'f eylədi aciz məni, qaldım əməlimdən,
Çəkdim nə ziyanlıq!
Saldıqca cavanlıqda keçən günləri yadə
Dərdim olur on qat!
Ya rəbb, yetərəm bir də mı dünyada muradə?
Heyhat və heyhat!
Saqqal ağarıb, bel bükülüb, dinmə, filani!
Övqatım olub təlx;
Övrət də yaxır saqqalıma gündə hənani,
«Rişi ki, bərəng əlx...».
Yad olsun o günlər ki, muradımca gəzərdim
Sazəndə Oruğnan;
Min acizü biçarələrin başın əzərdim
Sillə, yumruqnan.
Bu sayədə hər ləhzə, edib sə'yü təlaşı,
Sərvət qazanardım;
Təhsil eləyib qol gücünə əmri-məaşı,
Dövlət qazanardım.
Ə'zalar isə süst olub indi qocalıqdan,
Bir dadrəsim yox!
Görməzmisən əhvalımı, düşdüm ucalıqdan,
Fəryadrəsim yox.
Heç yerdə səsim yox.
Kəskin nəfəsim yox.
Fikrimdə cavanlıq,
Başqa həvəsim yox.

M. Ə. Axundov adına

* * *

Zahid ölməkdən qabaq məqsudinə çatmaq dilər
Cənnətə uyqu ipiylə bir kəmənd atmaq dilər.

E'tiqadınca yatar-yatmaz qucar qılmanları,
Ol səbəbdəndir namaz üstündə də yatmaq dilər.

Əblahin fikrincə cənnət bir Buxara şəhridir,
Beççə tək qılmanları bulduqca oynatmaq dilər.

Məqsədi sövmü səlatindən bu imişkən, yazıq,
Həm xudani, həm də məxluqatı aldatmaq dilər.

Uyquda axtardığım zahirdə, ya rəb, tapmasın!
Yoxsa illik taətin bir yolluğa satmaq dilər.

Rindü risva gördüyün zahid görərsə, şübhəsiz,
Səbhəsin, səccadəsin zöhdilə fırlatmaq dilər!

Küfrün iksir olduğun zahid, amandır bilməsin,
Yoxsa bir zərrə bulud imanına qatmaq dilər!

BAKIDA BİR KƏNDDƏ MÜHAVİRƏ

Kəndli

Denilir, elm oxuyun, sözləri hər anda bizə,
Bunu təsdiq ediyor ayeyi - Qur'an da bizə.

Axund

Hansı Qur'andır o ki, onda yazılmış bu xəbər?
Şiə mollası yazan türkicə Qur'ansa əgər,
Mən onun yazdığı Qur'ana yavıq durmayıram,
Maşa ilə yapışıb, əl də belə vurmayıram.

Kəndli

Xub, buyur, sünni yazan bir neçə təfsiri oxu!
Elmin icabi üçün ondakı təqdiri oxu!

Axund

Ox, apar bir yana at sünni yazan təfsiri!
Başına dəysin onun tərcüməsi, təhriri!
Bizlərə molla filankəs yazan asar gərək!
Biz olaq ondakı məzmunə xəbərdar gərək!

Kəndli

O yazıb: yer öküzün buynuzu üstündə durur,
Biz gərəkdir inanaq ki, kişi böylə buyurur?

Axund

Buna şübhən də var?

Kəndli

Əlbəttə, inanmam bu sözə!

Axund

Nə'lətullah, a gavur, şəkk ediyorsan öküzə?!

* * *

Əşhədü billahi-əliyyül-əzim,
Sahibi-imanəm, a şirvanlılar!
Yox yeni bir dinə yəqinim mənim,
Köhnə müsəlmanam, a şirvanlılar!

Şiəyəm, əmma nə bu əşqaldən,
Sünniyəm, əmma nə bu əmsaldən,
Sufiyəm, əmma nə bu əbdaldən
Həq sevən insanam, a şirvanlılar!

Ümmətü-mərhuməvü məğfur ilə,
Əmrdəyəm taəti-məzbur ilə,
Küfrümə hökm eyləməyin zur ilə.
Qaili-Qur'anəm, a şirvanlılar!

* * *

Bilmam nə görübdür bizim oğlan oxumaqdan?!
Dəng oldu qulağım,
Jurnal, qəzetə, hərzəvü hədyan oxumaqdan
İnceldi uşağım.
Ağlın aparıb bəs ki, baxır gündə qaraya,
Ya rəb, nə həmaqət!
Söz etməz əsər, çarə qalıb indi duaya,
Tədbir elə, övrət!
Lənət sənə, ifritə, sənindir bu cəhalət,
Etdin nə xəyanət!
Səndən törənibdir bizim evdə belə bid'ət,
Ey mayeyi - hiylət!
Tutsun çörəyim gözlərinin ağu qarasın,
Ey həmsəri - bədxah!
Haşa, oda yaxmaz ana istəkli balasın,
Kəssin səni allah!
Bu tifli oxutmaqlığa etdin məni tərğib,
Həp eylədin iğva,
İndi nədi fikrin? İşimiz oldu bu tərkib,
Yox çarəsi əsla.

Heyhat ki, tədbir ola bu xanəxərabə,
Zail olub əqli,
Dərsə, qəzetə, məktəbə, jurnalə, kitabə
Mail olub əqli.
Yıxdın evimi, eylədin evladımı zayc,
İş keçdi məhəldən
Mən anlamaram elm nədir, ya ki sənaye,
Zərəm bu əməldən!
İstərdim o da mən kimi bir hörmətə çatsın,
Dünyadə dolansın;
Ta qol gücünə malik olub şöhrətə çatsın,
Azadə dolansın;
Bir vəqtdir indi ki, olub Rüstəmi - dövran,
Bir ad qazanaydı;
Qarətlər edib ta ki, tapaydı sərü saman,
Bir şey də qanaydı.
Puç eylədin övrət, bu gözəl, sadə cavanı!
Dilbilməz oğul, vay!
Rəngi saralıb, qalmayıb əsla yarı canı,
Bir gülməz oğul, vay!
Ax nəxələf oğlum nə çətin məşqə düşübsən,
Ey kaş, usanaydın!

Quldurluğa yox, elmə tərəf eşqə düşübsən,
Bu qübhü qanaydın!
Ey nuri-düçeşmim, oxumaqdan həzər eylə,
Salch vələd ol, gəl!
At min, hünər öyrəş, məni də bəxtəvər eylə,
İşdə bələd ol, gəl!
Bəsdir oxudun, az qala canın tələf oldu,
Bu kardən əl çək!
Yazmaq, oxumaq başına əngəl-kələf oldu,
Əş'ardən əl çək!
Min elm oxuyub söz biləsən, hörmətin olmaz
Bu dari-cahanda;
Söz bəhrinə gövhər olasan, qiymətin olmaz.
Xasə bu zamanda.
Yox, yox, baxıram fikrinə, səndən öğul olmaz,
Canın bəcəhənnəm!
Mırt-Mırt oxumaqdan, kişi, bir qan ki, pul olmaz!
Mırtılda dəmadəm.
Qıl elm fərahəm,
Ol qüssəyə həmdəm;
Ömrün olacaq kəm;
Düşmən sənə alam...

* * *

Çatlayır, Xanbacı, qəmdən ürəyim.
Qavışıb lap acığımdan kürəyim.

Nola bir evdə qoyaydız qarabaş.
Verməyəydiz məni bu əbləhə, kaş!

Mən ki, damdan, bacadan baxmaz idim,
Su kimi hər tərəfə axmaz idim.

Hərzə-hərzə danışıb gülməz idim.
Ər nə şey olduğunu bilməz idim.

Oturub ac komasında atamın,
Bış-düşün hazır edərdim anamın.

Bitləyərdim nənəmin baş, yaxasın,
Yamayardım babamın çul-çuxasın.

Tez durub sübh sağardım inəyi
Xansənəmdən diləməzdim kömayi.

Neyləyirdim bəzəyi ya düzəyi?
Dama, divara yapardım təzəyi,

Atam əllaf, babam dülgər idi,
Qardaşım culfa, əmim kargər idi.

Xanbibim falçı, nənəm bağ toxuyan,
Bizdə, haşa, yox idi bir oxuyan!

Evimizdə var idi hər nə desən
Qatıq, ayran ilə qaymaq, nə yesən?

Nə bilirdik nə zəhirmardı kitab?
Biz olan evdə haçan vardı kitab?

Büsbütün gül kimi insanlardıq.
Nə müəllim, nə də dərs anlardıq.

Dəftərin andıra qalmış sözünü
Eşidib görməmiş idik üzünü.

Böylə bir tərbiyəli evdə müdam
Bəsladiz mən kimi bir sərvi - xuram.

Vay o gündən ki, məni ad eladiz
Elə bildiz də ki, dildaş eladiz

Mən də sandım ki, dönüb bəxtəvərə,
Gedirəm bir nəfər insana ərə.

Nə bilim böylə insan varmış.
Şəkli-insanda da heyvan varmış.

Ər oxurmuş da, yazırmış da, anam!
Ər deyil möhlik azarmış da, anam!

Ər deyil, şair imiş xanəxarab!
Fikri yazmaq, oxumaq, şuğlu kitab...

Saldız axırda yaman hala məni,
Ərə verdiz də bu qaffala məni.

Gah yazır, gah oxuyur, gah danışır.
Gündə bir hərzə kitabnan tanışır;

Gah gedir fikrə, bərəldir gözünü,
Məhv olur öylə ki, bilmir özünü.

Sübh olunca gecələr darğa kimi
Yatmayır, qır-qır edir qarğa kimi.

Gah da bir yatsa da vaxtında əgər,
Çəkməyir yuxladığı bir o qədər.

Qəflətən bir də görürsən ki, durur,
Yandırıb lampanı, çılpaq oturur.

Başlayır yatdığı yerdə təzədən
Oxuyub, yazmağı bir də təzədən.

Böylə od olmaz, anam böylə alo!
Od deyil, yanğı deyil, lovdur lo!

Gah görürsən ki, miz üstə yıxılır.
Baxıram halına qəlbim sıxılır;

Gah qarandaş, bir-iki para kağız
O qədər çəkmir - olur qara kağız

Xeyrini, şərrini qanmır bu kişi!
Yorulub bircə usanmır bu kişi!

Bizim evdə baxasan hər tərəfə -
Toxçaya, boxçaya ya kim, irəfə.

Görəcəksən bütün işkafda kağız,
Kasada, nimçədə, boşqabda kağız;

Yığılıb dağ kimi hər yanda kitab,
Evdə, dəhlizdə və eyvanda kitab.

Deyirəm, ay kişi, gəl özünə,
Bu nə işdir, a kül olsun gözünə!

Bu əməl etdi səni xanəxərab,
Pulların döndü bütün oldu kitab

Oxuduqca gözünün qarasını
Aparır, tap başının çarəsini.

Pul gedir, tabü təvanın da gedir,
Üstəlik bir quru canın da gedir.

Kəsbkarlıqdan əlin çıxdı usan!
Ər olan yerdə görüm yox olasan!

* * *

Nuri-çeşmanımmısan, ey pul, ya canımmısan?
İsmətim, namusum, irzim, qeyrətim, qanımmısan?
Hörmətim, fəxrim, cəlalım, şövkətim, şanımmısan?
Müshəfim, Məkkəm, Mədinəm,qiblam, əkranımmısan?
Məzhəbim, dinimmi, ayinimmi, imanımmısan?

Keçdi ömür şüğlü-təhsilinlə mövqufi-məlal
Dərdə düşdüm, bəstəri-həsrətdə qaldım xəstə-hal,
Səndədir könlüm yenə etsəm cahandan irtihal,

Sən mənim ömrüm, həyatım, cövhərim, canımmısan?
Məzhəbim, dinimmi, ayinimmi, imanımmısan?

Ah, zalım, ah kim oldum yolunda can fəda,
Bir doyunca qıymadım səndən alam zövqi-səfa,
İndi varislər hücumavər olub yeksər səna,

Varisin yaxud mənim malı-cibişdanımmısan?
Məzhəbim, dinimmi, ayinimmi, imanımmısan?

Eyləməz varislərim mən tək səni sənduqə dərc,
Hər biri eylər səni bir növ ilə min yerdə xərc,
Restoranlarda, klublarda olarsan hərcü-mərc,

Hər yetən çeynər səni, bilməm ətim, qanımmısan?
Məzhəbim, dinimmi, ayinimmi, imanımmısan?

Sevdiyim, bundan belə hini-zəvalindir sənin,
İş bu vəch ilə könül cayi-məlalindir sənin,
Xatirim, qəlbim, sərim vəqfi-xəyalindir sənin,

Sən məni məftun edən nazəndə cananımmısan?
Məzhəbim, dinimmi, ayinimmi, imanımmısan?

Səndən əl çəkməzdim, olsaydı, əlimdə iqtidar,
Lakin icbarən əcəl eylər məni səndən kənar,
Canım ağzımdan çıxınca söylərəm biixtiyar!

Nuri-çeşmanımmısan, ey pul, ya canımmısan?
Məzhəbim, dinimmi, ayinimmi, imanımmısan?

SATIRAM

Moldayı, salmadı el dil boğaza...
Eybi yox, gərçi qoyulduq loğaza,
Yaz bu e'lanımı da bir kağaza:
Açmışam Reydə geniş bir mağaza,

Çox ucuz qiymətə hər şey satıram,
Ay alan! Məmləkəti - Rey satıram!

Mağazamda tapılır hər cürə zad:
Cami-cəm, rə'yətü-Key, təxti-Qubad;
Gərçi bazarımı etməkdə kəsad
Sə'y edir bir para İrani nəjad

Leyk mən baxmayıram, hey satıram,
Ay alan! məmləkəti - Rey satıram!

Nə gərəkdir mənə bir munca ümur,
Ki, edə qəlbimi bihissü hüzür?
Babama vermədi əl «Abəki-şur»,
Deyilam naxələfü nabəşüur,

Qəsri-Şirin, əsəri Key satıram!
Ay alan! məmləkəti - Rey satıram!



İstəməm nuri, qaranlıq sevirəm,
Mülki İrani dumanlıq sevirəm,
Boşlayıb şəhri, yabanlıq sevirəm,
Bəsdi şahlıq, dəxi xanlıq sevirəm!

Səbzivar ilə Məyamey satıram!
Ay, alan! məmləkəti - Rey satıram!

Söz mənim, ev mənim, əsrar mənim,
İrzü namus mənim, ar mənim,
Mal mənim, məsləhəti-kar mənim
Satıram, dövləti - Qacar mənim,

Kimə nə dəxli ki, mən şey satıram?
Ay alan! məmləkəti - Rey satıram!

Şah məşrutə - pənah olmaq isə,
El qoyan vəz'lə şah olmaq isə,
Guş bir əmri-süpah olmaq isə,
Şah olub həmdəmi-ah olmaq isə,

Xan olub, nuş eləyib mey, satıram!
Ay alan! məmləkəti - Rey satıram!

* * *

Ay nənə bir qırmızı saqqal kişi!
Ağzı dualı, qoca baqqal kişi.

Zöhdlü, təqvalı, dili şükürli,
Surmə gözlü, dodağı zikrli
Ağlı kifayətli, dərin fikrli.

Qəlbi məhəbbətli, xoşəhval kişi.
Ağzı dualı, qoca baqqal kişi!

Molla ədalı, sofi girdarlı,
Mərsiyəxan qanlı, mürid arlı,
Hacı əməlli, məşədi karlı,

Nitqi həqiqətli, sözü fal kişi,
Ağzı dualı, qoca baqqal kişi!

Bir kişidir ki, nə çığır, nə bağır,
Gəzmədə yüngül, danışıqda ağır,
Sir-sifətindən elə bir nur yağır,

Görməmişəm bir buna timsal kişi,
Ağzı dualı, qoca baqqal kişi!

Söyləyir ax! ax! Nə gözəl çağ idi,
Onda ki, rəhmətlik atan sağ idi,
İş bu dükanda mənə ortaq idi,

Gündə satırdı nə qədər mal kişi
Ağzı dualı, qoca baqqal kişi!

İndi sənindir bu dükan sərbəsər,
Gəl, get, otur, dur, ye, iç, ol bəxtəvər,
Qəm yemə, doldur cibinə xüşgəbər,

Ağrını alsın qoca baqqal kişi,
Rüstəmi-dastanə dönən Zal kişi!

Bir belə yaxşı kişi olmaz nənə,
Gündə verir ləbləbi-kişmiş mənə,
Söyləyir: oğlum saba tez gəl yenə,

Qoyma qəmindən ola pamal kişi,
Ağzı dualı, qoca baqqal kişi!

Gah başımı, gah gözümü əlləyir,
Gah budumu, gah dizimi əlləyir,
Gah saçımı, gah üzümü əlləyir

Bir para söz də deyir ehmal kişi,
Ağzı dualı, qoca baqqal kişi.

MƏSLƏHƏT

Ağrın alım, a Məşəd Sijimqulu,
Altmışa yetdin, demə oldun ulu,
Şükr ola Allaha canındır sulu,
Çox da, kişi tutma beşəlli pulu,

Ver pulunu dadlı, ləzzətli zad al!
Qoy babalın boynuma, get arvad al!

Öz dediyindən görünür övrətin
Birdir, olur evdə, fəna halətin,
Var imiş evlənməyə də qüdrətin,
Bəs niyə yox laəqəl üç külfətin?

Yoxsa qonum-qonşuda, axtar yad al!
Qoy babalın boynuma, get arvad al!

İndi ki, var elçi də Səfdər kişi,
Bir bala qız al boyu ər-ər kimi,
On — on iki sinnidə dilbər kimi,
Zülfü qara, sinəsi mərmər kimi.

Qoy başını sinəsinə bir dad al!
Qoy babalın boynuma, get arvad al!



Saxlama kaftar kimi bir övrəti,
Boşla onu, basdı səni nikbəti,
Tap özünə bir sənəmi xəlvəti,
Bağrına bas yarı- mələksurəti,

Sən də igidlər kimi iş gör, ad al!
Qoy babalın boynuma, get arvad al!

Oğlum uşaqdır, hələ xamdır, naşı,
Ancaq iyirmi beşə çatmış yaşı:
Çıxmaz onun bir para işdən başı,
Neyləyir evlənməyi, atsın daşı.

Öz kefinə, bax kişi, dad ver, dad al!
Qoy babalın boynuma, get arvad al!

And verirəm mən səni imanına,
Bağla hana rişinə qıy canına,
Bir, iki, üç övrəti düz yanına.
Vermə zərər sərvətim samanına

Sən nə qəzet qan və nə də «İrşad» al!
Qoy babalın boynuma, get arvad al!

Fikr elə bir, kimdi bir arvad alan?
Rus, yəhudi! Deyil ərzim yalan.
İldə bir arvad alır mö'min olan,
Ləzzəti bir, feyzi də mindir inan!

Gəlməsə bir qız bu cürə, aldad al!
Qoy babalın boynuma, get arvad al!

* * *

Altmış illik ömrüm oldu səndə bərbad, Ərdəbil!
Bir də namərdəm əgər etsəm səni yad, Ərdəbil!

Zənn edirəm mən bütün aləmdə İrandan səva,
Bir fərəhabad yer yoxdu o samandan səva,
Övrət olmaz hüsündə Fatma, Tükəzbandan səva,

Var imiş Rusiyyədə min-min pərizad, Ərdəbil!
Bir də namərdəm əgər etsəm səni yad, Ərdəbil!

Ey vətən, huri görürdüm səndəki övrətləri,
Derdim ol, hurilərin sənsən yəqin cənnətləri,
İndi heyranam baxıb gördükcə bu lö'bətləri,

Hər birində başqa ləzzət, başqa bir dad, Ərdəbil!
Bir də namərdəm əgər etsəm səni yad, Ərdəbil!

Haliya Bakıdayam, Baku dema bir xüldzar,
Xassə dərya sahili bir lö'bətistani-tatar,
Hər tərəf ağ-çağ madamlar, bir-birindən gül'üzar,

Türfə dilbər, töhfə bir şey, yaxşı bir zad, Ərdəbil!
Bir də namərdəm əgər etsəm səni yad, Ərdəbil!

Min mənim tək kəblayı bir Sonyanın dildadəsi
Min mənim tək paki-din bir rumkanın ifdadəsi
Min mənim tək mö'minin bilməm nolub səccadəsi?

Bəndəlik qeydin qırıb olmuşdur azad, Ərdəbil!
Bir də namərdəm əgər etsəm səni yad, Ərdəbil!

Beş deyil, on beş deyil, hər yan baxırsan, var madam,
Ev madam, mənzil madam, balkon madam, talvar madam,
Sirk madam, qəstin madam, pasaj madam, bulvar madam,

Müxtəsər, əqlim çaşıb, ey dad-bidad, Ərdəbil!
Bir də namərdəm əgər etsəm səni yad, Ərdəbil!

Gərçi İrandan çıxarkən başqa idi niyyətim
Niyyətim kəsb idi, vardı kəsbi-kara qeyrətim,
Qeyrətim razı deyildi ac dolansın külfətim,

Yox gözümdə indi nə külfət, nə övlad, Ərdəbil!
Bir də namərdəm əgər etsəm səni yad, Ərdəbil!

Bəs ki, artır bunları gördükcə hərdən rəğbətim,
Rəğbətim artırsa da lakin qavışmır həsrətim,
Həsrətim bir şeyədir, ancaq düzəlmir halətim,

Halətim təskini-nəfsə qılmır imdad, Ərdəbil!
Bir də namərdəm əgər etsəm səni yad, Ərdəbil!

Qorxudurdu çıxmamışkən ölkədən qürbət məni,
Çulğayıbmış qəflətimdən vəhşətü dəhşət məni,
İndi bu gördüklərimdən mat edib heyrət məni,

Özlüyümdən çıxmışam, əfsus!...fəryad!... Ərdəbil!
Bir də namərdəm əgər etsəm səni yad, Ərdəbil!

Tazədən bərgəşt edib bir də cavan olsaydım, ah!...
Şıq geyimli bir cavani-xoşnişan olsaydım, ah!...
Bu pərilərlə doyunca həmzəban olsaydım, ah!...

Dəhrdə beş gün yaşardım xürrəmü şad, Ərdəbil!
Bir də namərdəm əgər etsəm səni yad, Ərdəbil!



AVROPADA MƏMDƏLİNİN EŞQBAZLIĞI

Məmdəli
Rəhm et mənə, can madmazel!
Könlüm olub qan, madmazel!
Bir baş Ədesdən gəlmişəm,
Ardınca, canan madmazel!
Gör hali-biaramımı,
Dil bisükundur, gəl mənə!
Eşqim füzundur, gəl mənə!

Madmazel
Rədd ol, a zalım Məmdəli!
Şahi-məzalım Məmdəli!
Artıq həyasız görməyə
Yoxdur məcalım, Məmdəli!
Get, get ki, zülmündən vətən
Dəryayi-xundur, gəlmənəm!
Boynun yoğundur, gəlmənəm!

Məmdəli
Mən öz yerimdə şah idim,
Şahi-fələk xərgah idim,
Şə'nim, cəlalım var idi,
Axır nə, zillüllah idim,
İranda çox yerdə yenə
Şə'nim məsundur, gəl mənə!
Eşqim füzundur, gəl mənə!



Madmazel.
Sən bir dəni mərdudsan,
Hər şə'ndən mətrudsan,
Bir müstəbid Şəddadsan,
Bir müstəqil Nəmrudsan.
Min dəfə onlardan dəxi
Zülmün füzundur, gəlmənəm!
Boynun yoğundur, gəmənəm!

Məmdəli.
Zənn etmə, İran sərbəsər
Olmuş mənimlə kinəvər
Əlyövm İranda yenə
Var nökərim min-min nəfər.
Onlar bütün gürgi-əcəl.
Millət qoyundur, gəl mənə!
Eşqim füzundur, gəl mənə!

Madmazel
Doğru bu, lakin əhli-kar
Az olsa da İranda var.
Məncə bu xain niyyətin
Etməz isabət zinhar.
Çünki sənin halın cünun
Şəxsin zəbundur, gəlmənəm!
Bəxtin nikundur, gəlmənəm!
Fikrin də dundur, gəlmənəm!
Karın oyundur, gəlmənəm!
Söz müxtəsər, bir dəfə qan:
Boynun yoğundur, gəlmənəm!

ƏHVALPURSANLIQ, YAXUD QONUŞMA.

– Nə xəbər var, məşədi?
– Sağlığın!
– Az-çox da yenə?
– Qəzet almış hacı Əhməd də
– Ba! oğlan, nəmənə?
Sən özün gördün alanda?
– Belə nəql eylədilər...
– Dəxi kim qaldı, xudaya, bu vilayətdə mənə?
Bu isə pəs o ləinin də işi qullabıdır.
Dini, imanı danıb, yoldan azıbdır, babıdır!
Dəxi bir başqa xəbər?
– Hacı Cəfərin oğlu Vəli,
Uşkolaya qoyub oğlun...
– O qurumsaq da?
– Bəli!
– Sənə kim nəql eyləyirdi bu sözü?
– Bilməm kim idi.
– Elə isə ona da min kərə lə'nət deməli...
Bu isə pəs o ləinin də işi qullabıdır.
Dini, imanı danıb, yoldan azıbdır, babıdır!
Dəxi bir başqa xəbər yoxmu?
– Tanırsan Qəfəri?
– Nə Qəfər? Hansı Qəfər?
– Mirzə Mənafin pədəri.
– Tanıram!
– Dün o da bir şübhəli kəslə danışıb...
– Kim deyirdi?
– Yedici Xansənəm arvadın əri...
– Bu isə pəs o ləinin də işi qullabıdır.
Dini, imanı danıb, yoldan azıbdır, babıdır!
Dəxi bir başqa xəbər varmı?
– Bizim qonşu Kərim...

A... a... a...
Bəli, hə... hə...
O nə qayrıb, de görüm?
«Molla Nəsrəddin» alıb, həm özü, həm oğlu oxur.
El bütün kafir imiş ölkədə, yoxmuş xəbərim...
Bu isə pəs o ləinin də işi qullabıdır,
Dini, imanı danıb, yoldan azıbdır, babıdır!
Mənə bir böylə xəbər çatdı: Səməd dam-daşını
Satıb, unversetə göndərmək üçün qardaşını...
Bu xəbər doğrudur, ancaq bunu da bilməlisiz:
Özü də çəkmə geyib, saç da qoyubdur, başını...
Bu isə pəs o ləinin də işi qullabıdır,
Dini, imanı danıb, yoldan azıbdır, babıdır!
Bir belə söz də deyirlər ki, sizin Kəblə Aşır,
Yeni məktəbçilər ilə gecə-gündüz yanaşır...
Bəli, düzdür bu dəxi...
Heyf o dövlətdən ona!
Dövlət azdırdı onu, dini-xudadan uzaşır..
Bu isə pəs o ləinin də işi qullabıdır,
Dini, imanı danıb, yoldan azıbdır, babıdır!
Doğrudurmu ki, Bədəl də qoyub ağzın yabana,
Danışır bir para sözlər ki, deyir rövzəxana?
Bəli, qurbanın olum, lap o çıxıb məzhəbdən!
Görməyirsənmi, şişib boynu, dönüb bir qabana?
Bu isə pəs o ləinin də işi qullabıdır,
Dini, imanı danıb, yoldan azıbdır, babıdır!
O qurumsaq Cəbi də gözləməyir hörmətimi,
Burda, orda, belə derlər ki, edir qiybətimi...
Bəli, hətta bu işin üstə onun arvadına söymüşəm!
Borcun odur-gözləmisən qeyrətimi...
Mən də həm daim ona yağdıraram lə'nətimi,
Başlayıb də'vətimi, ərz edib hacətimi,
Vəqfi-nifrin edərəm həm günümü, saətimi,
Deyərəm xəlqə: bu bidinin işi qullabıdır,
Siz də lə'nət oxuyun, çünki bu mə'lun babıdır!

* * *

Vay, vay! Nə yaman müşgülə düşdü işim, Allah!
Fəryadıma yet kim, yanıram atəşə, billah!
İslamə xələl qatmadadır bir neçə bədxah,
İstərlər ola bəndələrin taği və gümrah,
Etdim nə yaman əsrə təsadüf, aman, ey vah!
Lahövlə vəla qüvvətə illa və billah!

Məktəblər açıb eyləyin ehsanı, - deyirlər,
Məktəbdə qoyun ustulu, daskanı, - deyirlər,
Pərpuç eləyin çubü fələqqanı, - deyirlər
Dirşə çıxarın həzrəti-mollanı, - deyirlər,
Molla qovula, yə'ni müəllim gələ, vah-vah!
Lahövlə vəla qüvvətə illa və billah!

Mən anlamıram kim, nola mə'nayi-müəllim?
Qırx-əlli manat pul ala hər ay müəllim?
Bir təzə üsula ola ifayi-müəllim?
Pulları ala, söyləyə-oxqay-müəllim?
Molla ona həsrətlə çəkə küçədə ah... ah!..
Lahövlə vəla qüvvətə illa və billah!

Bir ildi, bir az çox da olur, yoxdu damağım,
Nə çatır əlim bir işə, nə gedir ayağım,
Hərdən yeni bir söz danışır oğlan-uşağım,
Taqqıldayır, Allah da şahiddi, qulağım,
Port-Artur, hürriyyət, Mancuriya qah... qah!..
Lahövlə vəla qüvvətə illa və billah!

And olsun, ötən günlərə, divanə olublar!
İslamə də, imanə də biganə olublar!
Billahi, başım çıxmayır, aya nə olublar!?
Hürriyyətə - mürriyyətə məstanə olublar...
Bah-bah!.. yenə bah-bah!.. yenə bah-bah!... yenə bah-bah!..
Lahövlə vəla qüvvətə illa və billah!..

Ax, ay keçən illər, nola bir də dolaneydiz,
Tazə yenə beş yüz il olunca dayaneydiz,
Elmi, ədəbi, fəzli, kəmalatı daneydiz,
Ey bildir, inişil nola, odlara yaneydiz!
Ta eyləməseydiz də bu qafilləri agah!
Lahövlə vəla qüvvətə illa və billah!..

Bilməm nə işim vardı, başım harda qarışdı,
Elm ilə belə düşmən olan qövm barışdı,
Təcdidi-vəfa birgə maariflə sarıştı,
Rahət yata bilməm, mənə qəm muri darışdı.
Etməkmi olar bir də bu uymuşları ikrah?
Lahövlə vəla qüvvətə illa və billah!..

* * *

Övladımız, əzkarımız əfsaneyi-zəndir,
Əfsaneyi-zən nuri-dili ruhi-bədəndir,
Çün hübbi-nisa lazimeyi-hübbi-vətəndir,

Əhli-vətəniz, hübbi-vətən yad alırız biz!
Dindarləriz, gündə bir arvad alırız biz!

Yox fərq bizim hündür ilə alçağımızda,
Daim görürüz iş bu qocalmış çağımızda,
Cüt-cüt durur övrət solumuzda, sağımızda,

Şəhvət quluyuz, nəfəsdən imdad alırız biz!
Dindarləriz, gündə bir arvad alırız biz!

Hər şam gərək üqdeyi-əfkar açılsın,
Fəvvareyi-iqbaldan amal saçılsın,
Hər sühb namaz etmədən həmmama qaçılsın,

Təthir edərək dillərə övrad alırız biz!
Dindarləriz, gündə bir arvad alırız biz!

Bu məşğələlər şiveyi-aşyayi-zamandır,
Ata-babamızdan bizə miras hamandır,
Zənn eyləmə süstüz, qanımız od kimi qandır,

Bu yolda töküb qanımızı ad alırız biz!
Dindarlərıiz, gündə bir arvad alırız biz!

Sair milət övrətlə ədalət edir, etsin,
Övrət ərə, ər övrətə rəğbət edir, etsin,
Hər kim ki, bir övrətlə cinayət edir etsin,

Üç-dördün ötüb sigədə tə'dad alırız biz!
Dindarlərıiz, gündə bir arvad alırız biz!

Tə'dadı-nisa bir hünəri-sariyəmizdir.
Tez boşluyuruz, çün bu libas ariyəmizdir.
Övrət nə demək? Xadiməmiz, çariyəmizdir!

Hərçənd alan vəktdə azad alırız biz!
Dindlarlərıiz, gündə bir arvad alırız biz!

ƏKİNÇİ

Məzlumluq edib başlama fəryadə əkinçi!
Qoyma özünü tülkülüyə, adə əkinçi!

Bir üzrlə hər gündə gəlib durma qapımda,
Yalvarma mənə, boynunu kəc burma qapımda,
Gahi başına, gah döşünə vurma qapımda,

Ləğv olma, ədəb gözlə bu mə'vada, əkinçi!
Lal ol, a balam, başlama fəryadə əkinçi!

Xoş keçmədi il çöllüyə, dehqanə, nə borcum?
Yağmadı yağış, bitmədi bir danə, nə borcum?
Əsdi qara yel çəltiyə, bostana nə borcum?

Getdi mənə nə fəhləliyin badə, əkinçi?!
Lağ-lağ danışıb başlama fəryadə əkinçi!

Aldı dolu əldən sərü samanını, neylim?!
Yainki çəyirtkə yedi bostanını, neylim?!
Verdin keçən il borcuna, yorğanını, neylim?

Ol indi palaz satmağa amadə, əkinçi!
Lal ol, a balam, başlama fəryadə əkinçi!

Söz açma mənə çox çalışıb az yeməyindən,
Canın bəcəhənnəm ki, ölürsən deməyindən!
Mən gözləmənəm, buğda çıxar ver bəbəyindən!

Çəltik də gətir, arpa da buğda da, əkinçi!
Yoxsa soyaram lap dərini, adə əkinçi!

Sən hey de: yoxumdur, çıxarıb canını, allam!
Vallahi oyub dideyi-giryanını, allam!
Şallağa tutub peykəri-üryanını, allam!

Öz halını sal indi özün yadə, əkinçi!
Lağ-lağ danışıb başlama fəryadə əkinçi!

Cütçü babasan, buğdanı ver, darı yeyərsən,
Su olmasa, qışda əridib qarı yeyərsən,
Daşdan yumşaq zəhr nədir, marı yeyərsən,

Öyrənməmisən ət-yağa dünyadə, əkinçi!
Heyvan kimi ömr eyləmisən, adə əkinçi!

Lakin mənim insanlıq olub vəz'i-mədarım,
Bəyzadəyəm, asayişədir cümlə-qərarım,
Meysiz, məzəsiz bitməz olur şəmü nəharım,

İşdə beladir haləti-bəyzadə, əkinçi!
Bəyzadələrin rəsmi budur, adə əkinçi!

* * *

Fə'lə, özünü sən də bir insanmı sanırsan?
Pulsuz kişi, insanlığı asanmı sanırsan?

İnsan olanın cahü cəlali gərək olsun,
İnsan olanın dövləti, mali gərək olsun.
Himmət demirəm, evləri ali gərək olsun.

Alçaq, ufacıq daxmanı samanmı sanırsan?!
Axmaq kişi, insanlığı asanmı sanırsan?

Hər məclisi-alidə soxulma tez arayə,
Sən dur ayağ üstə, demə bir söz ümərayə,
Caiz deyil insanca danışmaq füqərayə.

Dövlətlilərə kəndini yeksanmı sanırsan?!
Axmaq kişi insanlığı asanmı sanırsan?!

Fərq ilə ğina əhlinə kim verdi musavat?
Mə'nada da, surətdə də, var bunda münafat,
Öz fəzlini pulsuz edəməz kimsəyə isbat.

Bu mümtənəi qabili-imkanmı sanırsan?!
Axmaq kişi insanlığı asanmı sanırsan?!

Get vur çəkici, işlə-işin, çıxma zeyindən.
Məqsud, musavat isə ayrılma ceyindən,
Var nisbətin ərbabı-ğinayə nə şeyindən?

Bir abbası gün muzdunu milyanmı sanırsan?!
Axmaq kişi, insanlığı asanmı sanırsan?!

Dövlətliyik, əlbəttə, şərafət də bizimdir.
Əmlak bizimdirsə, əyalət də bizimdir.
Divan bizim, ərbabi-hökumət də bizimdir.

Ölkə dərəbəylik deyə xan-xanmı sanırsan?!
Axmaq kişi, insanlığı asanmı sanırsan?!

Asudə dolanmaqda ikən dövlətimizdən
Azğınlıq edirsiz də hələ ne'mətimizdən,
Böylə çıxacaqsızmı bizim minnətimizdən?
Ehsanımızın küfrünü şükranmı sanırsan?!
Axmaq kişi, insanlığı asanmı sanırsan?!

Heç bir utanırsan?!
Ya bir usanırsan?!
Olminnətü billah,
Odlara yanırsan?!



QORXURAM

Payi-piyadə düşürəm çöllərə,
Xari-müğilan görürəm, qorxmuram.

Seyr edirəm bərrü biyabanları,
Quli-biyaban görürəm, qorxmuram.

Gah oluram bəhrdə, zövqərnişin,
Dalğalı tufan görürəm, qorxmuram.

Gah çıxıram sahilə, hər yanda min
Vəhşiyi-ğərran görürəm, qorxmuram.

Gah şəfəq tək düşürəm dağlara,
Yanğılı vulkan görürəm, qorxmuram.

Gah enirəm sayə tək ormanlara,
Yırtıcı heyvan görürəm, qorxmuram.

Üz qoyuram gah neyistanlara,
Bir sürü aslan görürəm, qorxmuram.

Məqbərəlikdə edirəm gah məkan,
Qəbirdə xortdan görürəm, qorxmuram.

Mənzil olur gah mənə viranələr,
Cin görürəm, can görürəm, qorxmuram.

Bu küreyi-ərzdə mən, müxtəsər,
Müxtəlif əlvan görürəm, qorxmuram.

Xarici mülkündə də hətta gəzib,
Çox tuhaf insan görürəm, qorxmuram.

Leyk, bu qorxmazlıq ilə, doğrusu
Ay dadaş, vallahi, billahi, tallahi,
Harda müsəlman görürəm, qorxuram!...

Bisəbəb qorxmayıram, vəchi var:
Neyləyim axır, bu yox olmuşların
Fikrini qan-qan görürəm, qorxuram,
Qorxuram, qorxuram, qorxuram.

AX... AX!

Ax!... Necə kef çəkməli əyyam idi,
Onda ki, övladi-vətən xam idi!

Öz həqi-məşruini bilməzdi el,
Çöhreyi-hürriyyətə gülməzdi el,
Gözlərini bir kərə silməzdi el,
Qəzteyə, jurnala əyilməzdi el,

Daim eşitdikləri övham idi,
Ax!... necə kef çəkməli əyyam idi!

Ölkədə bunca yox idi eybcu,
Neyləridiksə görünürdü niku,
Xalq da didarımıza arizu,
Bizdə var idi nə gözəl abiru...

Hörmətimiz vacibi-islam idi,
Ax!... necə kef çəkməli əyyam idi!

Millətə, çatdıqca qəm, əyyaş idik,
Hakimə yar, amirə qardaş idik,
Qibleyi-taətgəhi-ovbaş idik,
Harda aş olsaydı ora baş idik,

Hər gecə, hər gün bizə bayram idi,
Ax!... necə kef çəkməli əyyam idi.

Gərçi riya idi bütün karımız,
Kar ilə bər'əks idi kirdarımız,
Leyk haman var idi miqdarımız,
Höccət idi hər kəsə göftarımız,

Xalqın işi, bizlərə ikram idi,
Ax!... necə kef çəkməli əyyam idi!

Eybimizi qulğalanışdı əba,
Hər nə gəlirdi boşalırdı qaba,
Kim nə qanırdı, - nədi zöhdü riya?
Naxoşa xaki-dərimizdən şəfa,

Soməəmiz Kə'beyi ehram idi,
Ax!... necə kef çəkməli əyyam idi!

Bizlər idik xalqın inandıqları,
Piri-hidayət deyə qandıqları,
Nur görürlərdi qaranlıqları,
Bizdə idi cümlə qaranlıqları,

Kim bizə pul verməsə bədnam idi,
Ax!... necə kef çəkməli əyyam idi!

İndi adamlar deyəsən cindilər,
Cin nədi, şeytan kimi bidindilər,
Lap bizi ovsarladılar, mindilər,
Ay keçən əyyam olasan indilər.

Onda ki, övladi-vətən xam idi,
Ax!... necə kef çəkməli əyyam idi!

CAVAN

Eyvanımız ucadır,
Nökərlərim xocadır,
Niyə məndə durmusan?
Mənim haram qocadır?

Qabaq dişim tökülüb,
Azılarım sökülüb.
Mənə qoca deməzlər.
Bir az belim bükülüb.

Sözün məni yaralar,
Ürəyimi paralar,
Saqqalım ağardısa
Hənə qoysam qaralar.

İstiqə lavaşım var,
Hər gecəyə aşım var.
Demə dədəm yerdəsən,
Ancaq əlli yaşım var.

Getmə-getmə ay dilbər!
Məni etmə mükəddər.
Özümü yüz cavana
Eyləmərəm bərabər!

Getmə-getmə amandır!
Ürəyim dolu qandır.
Zahirdə qocaldımsa,
Könlüm hələ cavandır.



M. Ə. Sabir.
"Hop-hop" nəmə

Redaktoru Vaqif Musa
Rəssamı Nəcəfqulu
Bədii redaktoru N. Rəhimov
Texniki redaktoru E. Tarverdiyeva
Korrektoru T. Kazımova
İB № 15
Çapa imzalanmış 20.09.92. Ofset üsulu ilə. Qarnitur "Tayms". Uçot-nəşriyyat vərəqi 5. Şərti çap vərəqi 5. 70X90 $^{1}/_{16}$. Tirajı 15000. Sifariş 51. Qiyməti 50 man.
"Şərq-Qərb" nəşriyyatı. Bakı, içəri Şəhər, Böyük qala küç. 41.